# Azərbaycan Aİ üçün olduqca mühüm tərəfdaşdır

## *Donald Tuskun səfəri göstərdi ki, Avropa İttifaqı Azərbaycanla tərəfdaşlığın inkişaf etdirilməsində çox maraqlıdır*

**Avropa İttifaqı (Aİ) Şurasının prezidenti Donald Tuskun Azərbaycana səfəri göstərdi ki, Aİ Azərbaycanla tərəfdaşlığın inkişaf etdirilməsində olduqca maraqlıdır və israrlıdır. Bu, Avropa strukturlarında təmsilçilik, ölkəmizin gələcəyinin Avropa ölkəsi kimi qurulması baxımından mühüm əhəmiyyət daşıyır.**



Müstəqilliyini əldə etdikdən sonra Azərbaycanın əməkdaşlığa böyük maraq göstərdiyi nüfuzlu qurumlardan biri də Avropa İttifaqıdır. Aİ ilə əməkdaşlığın genişləndirilməsi, ölkəmizin Avropaya inteqrasiya olunması, öz maraqlarını bilavasitə təmsil etməsi baxımından əhəmiyyətli olduğu üçün bu sahədə fəaliyyət Azərbaycan dövlətinin xarici siyasət prioritetlərindən biridir. Hazırda Azərbaycan demokratik proseslərin inkişaf etdirilməsi, qlobal problemlərin həllinə yardım göstərmək, beynəlxalq öhdəliklərə vicdanla əməl etmək kimi prinsiplərini rəhbər tutaraq, bu təşkilatla əməkdaşlığı yüksələn xətt üzrə inkişaf etdirir.

Donald Tuskun ölkəmizə səfəri çərçivəsində səsləndirdiyi fikirlərdən məlum olur ki, Aİ Azərbaycanı yüksək potensiala malik ölkə hesab edir, onun beynəlxalq münasibətlər sistemində rolunu yüksək qiymətləndirir. Sahib olduğu geniş imkanlar və sürətli iqtisadi inkişafa, regional təhlükəsizliyin təminatı işində fəallığına görə, Azərbaycan Avropa İttifaqı üçün Cənubi Qafqaz regionunda olduqca mühüm tərəfdaşdır. Azərbaycan bu baxımdan Aİ-nin əsas ticari tərəfdaşlarından biridir.

**Son illər ərzində Azərbaycan iqtisadiyyatı mühüm artım rəqəmlərini nümayiş etdirib. Son 7 ildə baş verən qlobal iqtisadi böhrandan Azərbaycan zərərsiz çıxıb. Keçən illər ərzində bu baxımdan, iqtisadiyyatın şaxələndirilməsi Azərbaycanın uzunmüddətli inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Həmçinin son 12 ildə bir sıra xarici təzyiq və təhdidlərə baxmayaraq, Azərbaycan enerji siyasəti sahəsində qəbul etdiyi çətin, lakin cəsarətli qərarları Avropa İttifaqı ölkələri tərəfindən dəstəklənib. Beləliklə, çoxşaxəli əməkdaşlıq həm Azərbaycanın, həm də bütövlükdə Avropa İttifaqının marağındadır.**

Aİ Azərbaycanın gücünü etiraf edir, onunla təzyiq, təhdid və ya bu kimi başqa vasitələrlə davranmağın heç bir nəticə verməyəcəyini başa düşür. Ümumiyyətlə son illərdə ölkəmizin sürətli, dinamik inkişafı, insanların rifah halının yaxşılaşması, fundamental hüquq və azadlıqlarının qorunması Aİ ölkələrinin hər birisinə yaxşı məlumdur. Eyni zamanda Azərbaycan müxtəlif layihələr üzrə Avropa İttifaqı ilə əməkdaşlıq edir. Bu əməkdaşlıq bəzi hallarda Avropa İttifaqına əsassız olaraq Azərbaycana qarşı haqsız ittihamlar irəli sürməyə mənəvi haqq vermir. Azərbaycan müstəqil, suveren dövlətdir və öz taleyini özü həll etmək haqqına sahibdir. Aİ-nin bəzi üzvlərinin düşündüyü formada Azərbaycana təsir göstərmək, onun daxili işlərinə qarışmaq mümkün deyil. Yəni, Azərbaycanla təzyiq, təhdid dilində danışmaq olmaz, bu, qeyri-mümkündür.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, bütün hallarda Azərbaycanın öz mənafelərini qətiyyətlə müdafiə edəcək, öz milli və dövlətçilik maraqlarından vaz keçməyəcək. Müstəqil Azərbaycan artıq ötən əsrin 80-90-cı illərdəki zəif, gücsüz, müdafiəsiz Azərbaycan deyil. Azərbaycan artıq regionun və dünyanın əsas, aparıcı dövlətlərindən, söz, nüfuz sahiblərindəndir. Onunla zor, təhdid, təzyiq, diktə dilində danışmaq olmaz və bu, heç cür qəbulolunan da deyil.

Prezident İlham Əliyev Donald Tuskla birgə mətbuat konfransında əməkdaşlığın əsas istiqamətlərini də göstərdi. Azərbaycan siyasi, iqtisadi və humanitar sahələr üzrə qarşılıqlı səmərəli əməkdaşlıq əlaqələrini inkişaf etdirməyə hazırdır. Ölkəmiz enerji sektoru, nəqliyyat kommunikasiyaları və ticarət əlaqələrinin ikişaf etdirilməsi ilə yanaşı, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında Ermənistanın işğalı altında olan Azərbaycan ərazilərinin geri qaytarılması məsələsinə Avropa İttifaqının obyektiv münasibətinə də önəm verir. Paralel olaraq, keçən illər ərzində Azərbaycan Avropa İttifaqının qabaqcıl təcrübələri və standartlarının ölkədə tətbiq edilməsi istiqamətində ciddi səylər göstərib.

**Beləliklə, tərəfdaşlıq münasibətlərinin əsasını təşkil edən razılaşdırılmış prinsiplərə riayət olunması hər iki tərəf üçün mütləq xarakter daşımalıdır. İkitərəfli münasibətlərdə təhdid, təzyiq, qarşılıqlı etimaddan sui-istifadə, daxili işlərə müdaxilə kimi zərərli addımlara yol verilməməlidir. Prinsip etibarilə, Tuskun səfəri Avropa İttifaqı ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün böyük potensial və yaxşı zəmin olduğunu göstərdi.**

**CAVANŞİR**